AMEA-nın XƏBƏRLƏRİ İQTİSADİYYAT

Seriyası elmi-praktiki jurnal

AMEA-nın XƏBƏRLƏRİ İQTİSADİYYAT seriyası elmi-praktiki jurnalında çap olunmaq üçün məqalə təqdim olunarkən aşağıdakı şərtlər nəzərə alınmalıdır.

1. Məqalələr üç dildə - Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildən əlavə, digər iki dildə xülasəsi bu şəkildə verilməlidir:

1.1.Tədqiqatın məqsədi

1.2.Tədqiqatın metodologiyası

1.3.Tədqiqatın tətbiqi əhəmiyyəti

1.4.Tədqiqatın nəticələri

1.5.Tədqiqatın orijinallığı və elmi yeniliyi

1.6.Açar sözlər

2. Xülasələrdə həmçinin müəllifinin adı, soyadı, atasının adı, elmi dərəcəsi, işlədiyi təşkilatın adı, vəzifəsi, E-mail ünvanı, yasadığı ünvan hər üç dildə dəqiq göstərilməlidir.

3. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır və istifadə olunmuş ədəbiyyat xülasələrdən əvvəl kodlaşdırma üsulu ilə göstərilməlidir.

4. Məqalədə yarımbaşlıqların verilməsi mütləqdir.

5. Məqalələrin mətnləri 1 intervalla, Times New Roman - 12 ölçülü şriftlərlə, 8-10 səhifə olmalıdır.

6. Məqalənin elektron və çap olunmuş variantı ayrıca faylda təqdim edilməlidir.

Bu tələblərə cavab verməyən məqalələr çap edilməyəcəkdir.

Məqalə nümunəsi

Xülasə

Giriş

Girişdə tədqiq edilən sahədə tədqiqatların indiki vəziyyəti haqqında məlumat verilməli, seçilmiş ədəbiyyat mənbələrinə istinadlar da edilməlidir. Burada tədqiqat qısa şəkildə əsaslandırılır, problemin araşdırılacaq məsələləri və ya yoxlanılacaq hipotezlər (ehtimallar, fərziyyələr) aydın şəkildə müəyyən edilir və məqsəd(lər) göstərilir.

Məqalənin struktur bölmələri (yarım başlıqlar)

Təhlil və qiymətləndirmələr (nəzəri və prakitk)

Nəticə

Ədəbiyyat siyahısı

QEYD: *Bu şərtlər müəyyənləşdirilərkən Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas elmi nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərə verdiyi tələblər əsas götürülmüşdür.*